| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | EDU101, Təhsilə giriş, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Nərgiz Məmmədova |
| | **E-mail:** | mammadova.n@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | Nərimanov korpusu |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1. Azərbaycan Respublikasının Təhsil Qanunu, 19 iyun, 2009<br>2. A.Süleymanova. Təhsilin əsasları. Bakı 2014<br>3. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı:”Elm və təhsil”, 2010<br>4. S. Kurikulum bələdçisi. B : Elm və təhsil, 2020<br>5. H.İsaxanlı, Keçid dövrü iqtisadiyyatında təhsil sistemi haqqında, Bakı 2006<br>**Əlavə vəsaitlər:**<br>6. Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018.<br>7. John Dewey, “My Pedagogic creed”, Journal of the National Education Association, Vol. 18, No. 9, pp. 291-295, December 1929. Reprinted by Permission<br>8. Cəbrayılov. İ. Təhsilin nəzəriyyəsi və tarixi: fəaliyyətin trayektoriyası. (Theory and history of education: trajectory of activity), Bakı 2021<br>9. Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili, Bakı-2023<br>10. Deborah Youdell – “School Trouble: Identity, Power and Politics in Education” (2nd Ed.) (2023)<br>www.khazar.org<br>www.arti.edu.az<br>www.edu.gov.az | |
| **Kursun təsviri** | Bu kurs tələbələrdə təhsilə elmi, şüurlu və sistemli baxış formalaşdırmağı hədəfləyir. Kurs çərçivəsində təhsilin mahiyyəti, məqsədləri, Azərbaycan təhsil sisteminin tarixi və strukturu, həmçinin kurikulum, təlim və qiymətləndirmə kimi əsas anlayışlar təqdim olunur. Fənn eyni zamanda | |

<table>
<tr><td></td><td colspan="3">tələbələrdə müəllimlik peşəsinə məsuliyyətli münasibət və təhsilə tənqidi yanaşma bacarığının formalaşmasına dəstək verir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="3">• Təhsillə bağlı elmi, şüurlu və sistemli baxış yaratmaq.<br>• Tələbələrdə təhsilin mahiyyəti, məqsədləri və cəmiyyətin inkişafındakı rolu haqqında ilkin elmi baxış formalaşdırmaq.<br>• Azərbaycan təhsil sisteminin tarixi, strukturu və inkişaf istiqamətləri barədə ilkin biliklər yaratmaq.<br>• Təhsil prosesinin əsas anlayışlarını (kurikulum, təlim, tərbiyə, qiymətləndirmə və s.) mənimsətmək və onların qarşılıqlı əlaqəsini izah etmək.<br>• Tələbələrdə müəllimlik peşəsinə şüurlu və məsuliyyətli münasibət formalaşdırmaq, müəllimin cəmiyyətdəki rolunu dərk etməyə şərait yaratmaq.<br>• Məktəbdaxili qiymətləndirmə və təlimin təşkili ilə bağlı ilkin analitik düşünmə bacarıqlarının inkişafına dəstək vermək.<br>• Tələbələrin təhsilə elmi, tənqidi və sistemli yanaşma qabiliyyətini formalaşdırmaq və onları gələcək ixtisas fənlərinə hazırlamaq.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Kursu bitirən tələbələr:<br>• Təhsilin mahiyyətini, məqsədlərini və cəmiyyətin inkişafındakı rolunu izah edir.<br>• Azərbaycan təhsil sisteminin əsas inkişaf mərhələləri və struktur səviyyələri haqqında ümumi məlumat verir.<br>• Kurikulum, təlim, tərbiyə və qiymətləndirmə anlayışlarını izah edir və onların qarşılıqlı əlaqəsini açıqlayır.<br>• Məktəbdaxili qiymətləndirmənin və təlimin təşkilinin əsas xüsusiyyətlərini izah edir.<br>• Müəllimlik peşəsinin cəmiyyətdəki rolunu və məsuliyyətini əsaslandırır.<br>• Təhsilə elmi və tənqidi yanaşma nümayiş etdirir.<br><br>Fənnin məzmunun təşkil edən mövzular tələbələrin əldə edəcəyi bilik və bacarıqları daha aydın dərk etmək və sistemləşdirmək məqsədlərinə xidmət edir.</td></tr>
<tr><td rowspan="3">Tədris metodları</td><td>Məşğələ</td><td colspan="2">+</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="4">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel 2026</td><td>30</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr müddətində</td><td>5</td></tr>
<tr><td>Quizlər</td><td>Semestr müddətində</td><td>10</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | **Qrup işləri** | Semestr müddətində | **10** |
| | **Aktivlik** | Semestr müddətində | **5** |
| | **Final imtahanı** | İyun 2026 | **40** |
| | **Yekun** | | **100** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Aktivlik**<br>Tələbələrin dərs zamanı müzakirələrdə aktiv şəkildə iştirakı, sual-cavablar zamanı fəal olması və daim dərslərə hazırlıqlı gəlməsi nəzərdə tutulur. Burada əsas məqsəd gələcəkdə pedaqoji fəaliyyətlə məşğul olacaq kadrın şagirdlərin öyrənmə mühitini daha yaxşı anlaması və təhsil normalarına uyğun dərsləri tədris etməsini təmin etməkdir.<br><br>**Quizlər**<br>Semestr ərzində tələbələrin əldə etdikləri bilik və bacarıqların yoxlanması üçün iki dəfə quizlər təşkil ediləcəkdir. Bu zaman tələbələrə keçirilən mövzuları əhatə edən açıq və qapalı tipli suallar təqdim ediləcək, verilən səhv cavablara görə ballar çıxılacaqdır.<br><br>**Qrup işləri**<br>Tələbələrə semestr ərzində fənn üzrə müxtəlif qrup işləri veriləcək. Tapşırıqlarda edilmiş səhvlərə və qüsurlara görə ballar çıxılır. Tələbənin dərslərdə fəaliyyətini fərdi, cütlərlə və qrup şəklində praktiki olaraq yerinə yetirməsi nəzərdə tutulur.<br><br>**İmtahanlar**<br>Aralıq və final imtahanı tədris olunan mövzular əsasında keçiriləcəkdir. İmtahana hazırlıq zamanı planda göstərilmiş ədəbiyyat nümunələrilə yanaşı, başqa mənbələrə də müraciət etmək lazımdır.<br><br>**Davamiyyət**<br>Tələbələrin dərslərdə mütəmadi iştirakı vacibdir. Keçiriləcək mövzuların bir-biri ilə sıx əlaqəli olduğunu nəzərə alsaq, tələbələrin dərslərdə iştirak etməməsi onlarda dərslə bağlı müəyyən boşluqların yaranmasına səbəb ola bilər. Semestr ərzində davamiyyət balı 5 bal olaraq qiymətləndirilir və 15 dəqiqə gecikən tələbəyə qayıb yazılır. | | |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | **İlkin tanışlıq, sillabusun təqdim edilməsi.**<br><br>Təhsilin növləri. Pedaqoji anlayışlara yeni yanaşmalar. Pedaqogikanın predmenti və vəzifələri. | Pedaqogika. Bakı Universiteti nəşriyyatı, 2003, səh.7-30 Paşayev Ə., Rüstəmov F.<br><br>Müəllim tərəfindən hazırlanmış təqdimat |

| | | | |
|---|---|---|---|
| 2. | | Təhsil pillələr (Məktəbəqədər, orta və ali təhsil).<br>Təhsilin məqsəd və funksiyaları. | M. Gültəkin (2018) - Təhsil elminə giriş (Fəsil 2)<br><br>Azərbaycan Respublikasının Təhsil Qanunu, 19 iyun, 2009<br><br>Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 3. | | Təhsilin yaranması və inkişaf tarixinə ümumi baxış. Azərbaycan təhsil tarixinə ümumi baxış. Keçid dövründə Azərbaycan təhsil sistemi. Boloniya deklarasiyası. | H. İsaxanlı (2006) – Keçid dövrü iqtisadiyyatında təhsil sistemi haqqında, I hissə.<br>Mehmet Gültəkin (2018) - Fəsil 3: Müasir dövrdə təhsil sistemləri (Boloniya prosesi daxil)<br>Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 4. | | Azərbaycan təhsil sisteminin iş prinsipləri : təhsil sisteminin hüquqi əsasları, təhsilin ümumi məqsədləri, təhsil siyasəti və prinsipləri. | A.Süleymanova “Təhsilin əsasları”, səh.19-27 Bakı – 2014.<br>Azərbaycan Respublikasının Təhsil Qanunu, 19 iyun, 2009<br><br>Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 5. | | Təhsilin fəlsəfi əsaslarına ümumi baxış. Təhsil elmi və fəlsəfə | M.Gültekin Təhsil elminə giriş (Fəsil 4)<br><br>Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 6. | | Təhsilin tarixi əsaslarına ümumi baxış. Xüsusi və əlavə təhsil. | Təhsilin nəzəriyyəsi və tarixi: fəaliyyətin trayektoriyası. (Theory and history of education: trajectory of activity) səh. 58-65<br><br>M. Gültəkin (2018) - Təhsil elminə giriş (Fəsil 7) |
| 7. | | Təhsil sistemləri və onların xüsusiyyətləri<br><br>**Quiz 1** | A.Süleymanova “Təhsilin əsasları”, Bakı – 2014.s134-156<br>A.Süleymanova. Təhsilin əsasları. Bakı 2014.s145-156 |
| **Aralıq imtahanı** | | | |
| 8. | | Kurikulum pedaqoji anlayış kimi. Kurikulumların növləri | S. Kurikulum bələdçisi. B : Elm və təhsil, 2020, səh150-165 |

| | | | |
|---|---|---|---|
| | | | Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 9. | | Taksonomiya anlayışı. Blum taksonomiyasının mahiyyəti və tətbiqi | S. Kurikulum bələdçisi. B : Elm və təhsil, 2020, səh 221-231<br><br>A. Süleymanova (2014) Təhsilin idarə olunması (Fəsil 6). |
| 10. | | Müəllimlik peşəsi və müəllimin əsas xüsusiyyətləri. | M. Gültəkin (2018) - Təhsil elminə giriş (Fəsil 10).<br><br>Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 11. | | Öyrənmə nəzəriyyələri. Öyrənmə psixologiyası və öyrətmə-öyrənmə prosesi,Sinfin idarə olunması | Gültekin, M.(Editör). (2017) Eğitim Bilimine Yayınları.s-200-210 s134-156<br><br>Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 12. | | Ümumtəhsil məktəblərində tərbiyə işinin məzmunu | Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili, Bakı-2023 səh 198-230<br><br>Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 13. | | Azərbaycan Respublikasında təhsildə islahatlar və cəmiyyətə təsiri, mövcud çətinliklər, son illərdə əldə edilən nailiyyətlər | www.edu.gov.az<br><br>Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 14. | | Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmə qaydaları<br>**Quiz 2** | Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, 2008, səh 46-62 |
| 15. | | **Ümumiləşdirmə.**<br><br>Keçirilən mövzuların yekun müzakirəsi | |
| **Final imtahanı** | | | |